# Böyük dostluğun təcəssümü

## Koreyalı qonaqlar Qəbələ ilə yaxından tanış olub

*Koreya Respublikasının ölkəmizdəki səfirliyinin və "Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası" İctimai Birliyinin (SEBA) birgə təşkil etdiyi "Ariranq"- "Azərbaycanın qəlbini coşdur" adlı mədəniyyət festivalının iştirakçıları Qəbələ şəhəri, onun tarix-mədəniyyət abidələri, müasir infrasturukturu və turizm potensialı ilə yaxından tanış olub.*















Nümayəndə heyətinin üzvləri əvvəlcə Qəbələ Mədəniyyət Mərkəzi ilə tanış olub. Koreyalı qonaqlar burada yerli sənətkarların əl işindən ibarət sərgiyə baxıb, rayon mədəniyyət evinin özfəaliyyət kollektivlərinin çıxışlarını maraqla izləyiblər. Sonra qonaqlar 900 il Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələnin tarixi, mədəniyyəti və etnoqrafiyası haqqında məlumat əldə ediblər. Onlara bildirilib ki, Azərbaycan-Koreya arxeoloji ekspedisiyası 2009-cu ilin yayında SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşəbbüsü, maliyyə və təşkilatı dəstəyi ilə fəaliyyətə başlayıb.

O vaxtdan etibarən Qafqaz Albaniyası dövlətinin paytaxtı, sonralar isə Azərbaycan və Şərqin tarixində strateji əhəmiyyətli şəhər olmuş Qəbələnin (e.ə. IV, b.e. VIII-X əsrləri) tarixi ərazisində, eləcə də Paleolit, Eneolit və Erkən Tunc dövlərinə aid şəhərkənarı ərazilərində arxeoloji tədqiqatlar aparılıb. Qeyd edilib ki, Qəbələdəki arxeoloji tədqiqatlar AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları və Koreyanın bir neçə elmi mərkəzinin mütəxəssislərindən ibarət komanda tərəfindən aparılıb. Arxeoloji qazıntılar zamanı aşkar edilən maddi-mədəniyyət nümunələri Qəbələdə qədim şəhərsalma və şəhər həyatının səviyyəsini tədqiq etməyə imkan verir. Koreyalı qonaqlar həmin nümunələrə Çuxur Qəbələ kəndindəki Arxeoloji Mərkəzin sərgi salonunda baxış keçiriblər. Bildirilib ki, bu eksponatların saxlanılması və mütəxəssislər tərəfindən laboratoriya işlərinin aparılması üçün mərkəzdə lazımi şərait yaradılıb.

Qonaqlar Qəbələdə aparılan arxeoloji qazıntı işləri prosesini və Qəbələ rayonunun sosial-iqtisadi inkişafını əks etdirən videoçarxa baxıb. "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi ilə tanışlıq zamanı qonaqlara məlumat verilib ki, kompleksin 4 kanat xəttinin hamısında və 10 xizək yolundan 8-də tikinti işləri başa çatdırılıb, turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranlar və beşulduzlu "Tufandağ" oteli açılıb, bütün dağ-xizək trassası süni qaryağdıran generasiya sistemi ilə təchiz edilib və gün ərzində kompleksdə 3 min nəfərə xidmət göstərilməsi üçün şərait yaradılıb. Koreyalı qonaqlar həmçinin Qəbələnin turizm obyektləri, rayonda son illər inşa edilən müasir beşulduzlu otellərlə tanış olub.

Qonaqlar Qəbələdən xoş təəssüratlarla ayrılıblar.

**Varis YAQUBOV.**
**"Qəbələ"**
**Fotolar İlkin Vəlizadənindir.**

## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2017-ci İLİN OKTYABR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Kürd kəndi | 03.10.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Böyük Əmili kəndi | 10.10.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Soltannuxa kəndi | 17.10.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Tüntül kəndi | 24.10.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Zərgərli kəndi | 31.10.2017 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə müəssisələrinin, hüquq mühafizə orqanlarının, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol-istismar, baytarlıq, qaz-istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

## Mühazirələr dinlənildi

Sentyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti Yanında Bilik Fondunun təşkilatçılığı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycvan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Bilik Fondunun lektorlar qrupunun üzvləri olan tanınmış elm xadimlərinin, Milli Məclisin deputatlarının, jurnalistlərin, fondun yerlərdəki nümayəndələrinin ölkənin müxtəlif elm, təhsil müəssisələrində mühazirələri və maarifləndirici görüşləri təşkil olunub. Görüşdə İslam həmrəyliyi ili və 15 sentyabr Bilik gününə həsr olunmuş «Heydər Əliyev islam həmrəyliyi ideyasının banisidir» mövzusunda mühazirələr oxunub, söhbətlər aparılıb.

Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun ölkə daxili layihələr sektorunun müdiri Hacı Nərimanoğlu Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində və Qəbələ şəhər 2 saylı tam orta məktəbdə «Heydər Əliyev islam həmrəyliyi ideyasının müəllifidir» mövzusunda mühazirə ilə çıxış edib.

Dinləyicilərə ulu öndər Heydər Əliyevin islam həmrəyliyi ideyasının banisi olduğu tarixi faktlarla çatdırılıb.

Ölkə Prezidenti İlham Əliyevin islam həmrəyliyi ilə bağlı çağırışlarının, həyata keçirdiyi tədbirlərin ulu öndər Heydər Əliyevin irəli sürdüyü «İslam həmrəyliyi» ideyasının məntiqi davamı olduğu vurğulanıb.

Mühazirəçi görüş iştirakçılarının mövzu ilə əlaqədar çoxsaylı suallarını cavablandırıb.

**Nahidə ƏBDÜRƏHİMOVA.**
**«Qəbələ»**